**“Dirçəliş”.-**2013.-№ 180.-S.99-105.

# İNSAN QRUPUNU QƏSDƏN MƏHV ETMƏK SİYASƏTİ

**Nəsir Məmmədov**,
*AMEA-nın İnsan Hüquqları İnstitutu*

**Açar sözlər***: qrup, soyqırımı, cinayət, şəxslər*
**Key words:** *group, genocide, crimes, persons*
**Ключевые слова:** *группа, геноцид, приступления, лица*

Konvensiyada işlədilən qrup sözünün soyqırımı cinayətinin miqyasının təyin olunmasında böyük köməyi ola bilər. nki, qrup əleyhinə yönəlmiş cinayət həmin qrupun antisosial olması, cəmiyyətdə mənfi davranışına görə özünə qarşı ikrah si oyadan insanlar qrupu olması mənasına gəlir. Lakin, əgər bir soyqırımını cinayət kimi araşdırırıqsa, burada qrup antisosial , sosiallaşmış tərəfdir, günahsız insanlar yığnağıdır. Burada qruplar oğrular, terroristlər, banditlər deyil və ya onları akterizə edən keyfiyyətlərə malik deyil. Soyqırımı Konvensiyasına əsasən, qrup dedikdə, milli, irqi, dini, siyasi və ial-iqtisadi qruplar nəzərdə tutulur.

Soyqırımı hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə müvafiq qrupun lərinin qətlə yetirilməsi; müvafiq qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər; uşaqların akılıqla bir insan qrupundan digərinə verilməsi; belə bir qrupun üzvlərinin sağlamlığına ağır zərər yetirilməsi; hər hansı belə qrup üçün bilərəkdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması; belə bir qrupun üzvlərinin da köçürülməsidir. Əvvəlcədən hazırlanmış, planlanmış bir soyqırımı kimi yəhudi holokostu, Kamboca, Ruandada tutsilərin qırımını göstərə bilərik. Bütün bunlar soyqırımı cinayəti bir siyasətin və ya öncədən hazırlanmış planın olmasını tələb edir.

Bütün soyqırımı aktlarının ümumi strukturu var: qrupun bir və ya bir neçə üzvlərinin məhv edilməsi kimi actus reus və ma Statutunun 30-cu maddəsində təsvir olunmuş mens rea. Bütün soyqırımı cinayətlərinin ümumi xarakterini formalaşdıran qrupun tam və ya qismən məhv edilməsi siyasətidir. Qrupu məhv etmək niyyəti Roma Statutunun 30-cu maddəsində 3 tip eqoriyaya bölünür: davranış, nəticələr və şəraitlər. Roma Statutunun 6-cı maddəsi göstərir ki, soyqırımının mental niyyətini ortaya qoyan qrupu məhv etmək niyyəti (mens rea) qadağan olunmuş hərəkəti (mens rea) daha aydın şəkildə qlayır.

Soyqırımı qurbanlarınn müəyyən edilməsinin həlledici əlaməti onların fərdiliyi deyil, məhz onların qrupa nsubluğudur. Ayrıca bir insanın qətlə yetirilməsi ayrıca bir fərdin yaşamaq hüququnu tanımaqdan imtina kimi xarakterizə nur. Müvafiq olaraq actus reus (qadağan olunmuş hərəkət) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun vcudluğuna qarşı yönəlmiş olmalıdır; niyyət məhz milli, etnik, irqi və ya dini qruplardan birinin tamamilə və ya qismən məhv lməsindən ibarət olmalıdır. Soyqırımı cinayətinə görə, bütöv qrupun məhv edilməsi kimi son nəticəyə nail olunma tələb lmir [2, s.158].

1948-ci il Soyqırımı Konvensiyasının ikinci maddəsində deyilir ki, hazırkı Konvensiyada soyqırımı anlayışı məhv etmək yəti ilə törədilən istənilən hərəkətləri özündə ehtiva edir.

Soyqırımın digər cinayətlərdən niyyət elementinə görə fərqlənməsi onun üçün insan itkisi, insan qurbanı zəruri mentdir. Ancaq əsas yeganə element deyil. İnsanlığa qarşı yönəlmiş cinayət əməlləri birbaşa qurbanın olduğu bir qrupun hv edilməsi niyyəti ilə törədilməlidir. Birbaşa qurbanlara qarşı soyqırımı aktorunun hansı səviyyədə, necə təqsirli ranmasından asılı olmayaraq, bu əlavə element tələb olunur. Beləliklə, soyqırımı iki daxili elementi əhatə edir: biri birbaşa banlara yönəlmiş, ikincisi isə qrupa yönəlmiş hərəkət. Qrupu müdafiə etmə problemi başqa kontekslərdə cinayət hüququnda dırılır. Cinayət həm birbaşa qurbanlara qarşı akt və bir qrupun üzərində təsiri olan niyyətdir [3, s.376].

Dövlətlərin qanunvericiliyində qrupa qarşı müxtəlif zorakı aktların anlayışı verilməkdədir. Məsələn, Birləşmiş Krallıq orizmi “ictimaiyyəti və ictimai sektorun bir hissəsini və ya daha böyük qrupları qorxutmaq məqsədilə törədilən zorakı aktlar ni müəyyən etmişdir”. Bu yanaşmaya əsasən, terrorizm xüsusi qurban və ya qurbanlara qarşı cinayət aktı kimi dəyərləndirilir.

ABŞ-da cinayət qanununda aktorun qrupda üzvlüyünə görə insanı seçdiyi və onu öldürdüyü halda, bu, daha böyük ayət əməli sayılır və ciddi cəza tələb edir. Məsələn, Viskonsin qanunu cinayətkarın “irq, din, rəng, əlillik, cinsi meyl, nsubiyyət və ya mənşə” əsasında qurbanı seçdiyi halda, şəxslərə qarşı yönəlmiş istənilən bir cinayətdə cəzanı artırır. ABŞ-da və ya bu kimi digər federal ştatların qanunları qrupa münasibətdə Soyqırımı Konvensiyası ilə oxşar deyil, lakin, bununla belə, orun qrupa münasibətini cinayət elementi kimi götürürlər.

Qrupu məhv etmək niyyəti elementi soyqırımı cinayətini insanlıq əleyhinə cinayət kateqoriyasına daxil olan cinayət kimi rnəlxalq səviyyəli cinayətlərdən fərqləndirir. Belə cinayətlərdən biri də “izləmə, təqibetmədir”. Təqiblə qadağan olunma

rəkət, davranış) şəxsin əsas hüquqlarının itirilməsidir. Beləliklə, soyqırımı aktı təqiblə, izləmə ilə münasibətdə aralarında əyyən oxşarlıq olmasına baxmayaraq ondan genişdir [4, s.38].

Daxili elementdə iki cinayət fərqlənir. Təqiblə, cinayətkar qrup üzvlüyünə görə qurbanları seçir, soyqırımı ilə qrupu hv etmək niyyətində olur. Qrup üzvlüyünə görə qurbanların seçilməsini qrupu məhv etmək üçün birbaşa qurbanlara zərər irməkdən fərqləndirməkdən çətin ola bilər. Soyqırımı və təqib, izləmə arasında fərq buradan meydana çıxır.

İnsanlıq əleyhinə istənilən bir cinayət təqib, izləmə də daxil olmaqla, mülki əhaliyə qarşı genişmiqyaslı və ya sistemli ildə törədilməlidir. Bu xüsusda, təqib soyqırımından daha güclü sübut tələb edir. Hətta qrupu məhv etmək niyyəti gizli lanılanda şəxsin qrupda üzvlüyünə görə aktor onu vahid şəxsi hüquqlarından məhrum edir. Sonda insanlıq əleyhinə istənilən cinayətlə qurbanlar "mülki əhali" olmalıdır, ancaq soyqırımında hərbi personal da qurbanlar ola bilər [5, s.295-96],

Müəyyən bir niyyətlə Soyqırımı Konvensiyasının üçüncü maddəsinə əsasən məhvetmə aktı kimi:

a) soyqırımı;
b) soyqırımı törətmək məqsədilə sui-qəsd;
c) soyqırımı törətmək üçün birbaşa və ictimai təhrik;
d) soyqırımı törətməyə cəhd;
e) soyqırımında iştirak ifadə edilən qruplardan hər hansının mövcudluğuna qarşı siyasətlə bağlı olmalıdır.

Qrupun mövcudluğunu məhv etmək üçün həyata keçirilən siyasətin tərkib hissəsi kimi törədilən soyqırımı əməllərinə:

-qrup üzvlərinin öldürülməsilə nəticələnən birbaşa öldürmə və ölümə səbəb olan, ölümə gətirib çıxara biləcək əməllər;

-ciddi fiziki və mənəvi zərər yetirməyə səbəb olmaqla soyqırımına genişmiqyaslı işgəncə, qəddar davranış, zorlama, sual zorakılıq, məcburi şəkildə narkotiklərdən istifadəyə təhriketmə, yaralama daxildir. Soyqırımı aktı dedikdə, təkcə qrup lərinin öldürülməsi və ya öldürməyə səbəbolma nəzərdə tutulmur. Həmçinin ciddi fiziki və mənəvi zərər yetirmə də qrupun vcudluğunu aradan qaldırmaq üçün onu məhvetmə siyasəti soyqırımı aktına daxildir;

-qrupu məhv edilməsinə istiqamətlənmiş həyat şəraitinin qəsdən yaradılması ilə qrupun fiziki mövcudluğu üçün həyati na kəsb edən təmiz su, ərzaq, geyim, sığınacaq və tibbi xidmətlərdən onun məhrum edilməsi daxildir. Qrupu bu cür hvetmə siyasətini həyata keçirmək üçün soyqırımı aktorları məhsulun müsadirə edilməsi, yeyinti məhsullarının blokadaya ması, məcburi şəkildə ərzaq məhsullarından uzağa köçürülmə vasitələrindən istifadə edilməsi;

-doğumun qarşısının alınması, o cümlədən məcburi şəkildə sterilizasiya, məcburi abort, evlənmənin qadağan edilməsi və il artırmanın qarşısını almaq niyyəti ilə kişi və qadınların ayrılması;

-uşaqların məcburi şəkildə bir qrupdan digər qrupa köçürülməsi və ya verilməsi kimi tədbirlər daxildir.

Qrupu məhv etmək siyasətində "tam və ya qismən" ifadəsini araşdırmaq lazımdır. Qeyd etdiyimiz kimi, soyqırımı ayətini törədənlərin bütöv qrupu məhv etmək niyyətində olmasına ehtiyac yoxdur. Qrupun yalnız müəyyən hissəsinin əsələn, bir regionda yaşayan üzvlərinin) məhv edilməsi, hətta bir nəfər qrup üzvünün öldürülməsi ilə qrupun məhv edilməsi yqırımı cinayətidir.

Əksər halda səlahiyyətli orqanlar qrupun əsaslı şəkildə məhvinə gətirib çıxaran aktları soyqırımı aktı hesab edirlər. caq əgər soyqırımı cinayəti törətmək istəyən aktorun niyyəti bütöv qrupu məhv etməyə istiqamətlənmişsə də, sonda qrup lərindən bir nəfərin ölümü də soyqırımı aktı olacaq. Çünki, burada cinayətin həlledici komponenti olan niyyət qrupun məhv lməsinə istiqamətlənib. Soyqırımı cinayətkarın fikrində xüsusi niyyət tutaraq oxşar xüsusiyyətlərinə, qrupa mənsubluğuna ə xüsusi müdafiə olunmuş qrupda birləşmiş şəxslərə qarşı törədilən cinayətdir.

Soyqırımı Konvensiyasına əsasən məlum dörd müdafiə olunmuş qruplar göstərilir. Bunlardan:

-milliyyəti və ya milli kökü bir dövlətə mənsub olan şəxslərin birliyi olan milli qrup;

-mədəni ənənələr, dil və irsə görə müəyyən olunan insanların birliyi olan etnik qrup;

-fiziki-bioloji xarakterə görə müəyyənləşdirilən şəxslərin birliyi olan irqi qrup;

-ümumi dini inanc, inamlar, təcrübələr və rituallara malik olan insanların birliyi olan dini qrup fərqləndirilib.

Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının Statutunda qrupun məhz bu əlamətlərinə görə diskriminasiyaya ruz qalması və məhv edilməsi siyasətinə istinad edilib [6].

Soyqırımını digər, məsələn, insanliq əleyhinə cinayətdən fərqli edən əlamətlər niyyətin və qrupun olmasidir. Qrupa qarşı ədilmiş cinayəti soyqırımı aktı kimi dəyərləndirərək, bunu insanlıq əleyhinə cinayət kimi hesab etmək olmaz. Çünki, insanlıq yhinə cinayətlər şəxslərə qarşı törədilir. Burada "şəxslər" dedikdə, onların hansısa xüsusi qrupa məxsus olması, vahid niyyət, tivin olması vurğulanmır. Lakin soyqırımı aktında "şəxslərə" qarşı dedikdə, mütləq şəkildə milli, etnik, irqi, dini birliyinə ə xarakterizə olunan müdafiə olunmuş qruplar nəzərdə tutulur. Buradan belə nəticəyə gəlmək olar ki, soyqırımı cinayəti ona ə qrupu məhv etmək siyasəti güdür ki, qrup müəyyən bir niyyət, motiv əsasında (dini, etnik, milli, irqi) formalaşmış anların birliyidir və soyqırımı cinayətinin də əsasında niyyət, motiv durur. Bununla da, soyqırımı aktorları qrupu məhv etmək asəti ilə öz məqsədlərinə çatmış olurlar.

Ruanda və Yuqoslaviya üzrə beynəlxalq Cinayət Tribunallarının Statutlarına və 1948-ci il Soyqırımı Konvensiyasının II

III maddələrinə istinad etsək, qrupu məhv etmək siyasəti bir müdafiə olunmuş milli, irqi, etnik, dini əsasli qrupa qarşı qamətlənməlidir.

Soyqırımı Konvensiyası və Roma Statutunun qəbulu zamanı müdafiə olunmuş qrup və onun hansı niyyət əsasında malaşması milli, irqi, etnik, dini baxımdan siyahılanması müzakirə mövzusu olmuşdur. Konvensiya və Roma Statutunu ırlayarkən hüquqşünaslar qrupların milli, irqi, etnik, dini əsasda formalaşmasının dar anlamda olmasını nəzərdə tutublar. ayesunun işində Məhkəmə Palatası belə vurğulayıb ki, Konvensiyaya əsasan müdafiə olunmuş dörd qrupun eyni kriteriyalara əyyən edilməsi o qədər də düzgün yanaşma deyil. Çünki, bu müdafiə olunmuş qruplarda birləşən insanlar doğulan andan darən davamlı olaraq və ya daimi bu qrupda mövcud olmur. Ona görə da, burada müdafiə olunmuş qrup yerinə, daimi, sabit p ifadəsi işlənsə, daha düzgün olar [7].

Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalının Palatasının soyqırımı cinayətinin şərhində deyilir ki, soyqırımı aktı ona ə şəxslərə qarşı törədilir ki, həmin şəxslər xüsusi qrupun üzvləridir və niyyət həmin xüsusi qrupu məhv etmək siyasəti uğundan qurbanlar şəxslər, hədəf isə qrup olur [8, s.3].

Soyqırımı cinayəti tələb edir ki, cinayəti törədənin xüsusi fıkri, niyyəti olsun. Qrupu məhv etmək niyyəti soyqırımı ayəti törədənin əksqiyamçılar kimi xüsusi cinayət motivindən fərqlidir. Dəqiq sübut olmadan qrupu məhv etmək niyyəti usi faktlar və şəraitlər əsasında ortaya çıxa bilər. Belə ki, eyni qrupa qarşı sistemli və xüsusi şəkildə təqsirli aktların ırlanması; törədilən cinayət qurbanlarının miqyası; istifadə olunan silahlar; bədənə yetirilən fiziki zərərin səviyyəsi; dağıdıcı ayrı-seçkiliyə əsaslanan aktların təkrarı nəticəsində soyqırımı niyyətinin olmasını ehtimal etmək olar.

Soyqırımım ittiham etmək üçün razılıqlar və ya planlar ümumi şəkildə sübut olunmayanda Yuqoslaviya və Ruanda üzrə ynəlxalq Cinayət Tribunalının (YBCT VƏ RBCT) cinayət işləri üzrə cinayət törədənin niyyəti haqqında yüksək standart malaşır. Soyqırımı niyyəti faktlar və şəraitlər əsasında ən mühüm nəticəni ortaya qoyur.

Qrupu məhv etmək niyyəti ilə bağlı olan mühüm qərarlara YBCT-nin Goran Yelisiç, Mitar Vasilyeviç və Radoslav lanina qarşı və RBCT-nin Silvestr Yakumbitsiyə qarşı qərarları da daxildir.

Qrupu məhv etmək siyasətinin əsasında irqi, etnik, dini, milli amillərdən savayı siyasi, mədəni, gender kimi əsaslar da bilər. Hazırkı qloballaşma dövründə millətlərin bir-birinə inteqrasiya etdiyi, milli sərhədlərin aradan qaldırıldığı, gender abərliyinin geniş yayıldığı bir dövrdə siyasi, mədəni, gender amili əsasında qrupu məhv etmək siyasətinin həyata keçirilməsi da inandırıcı görünmür və Konvensiyaya bu kimi düzəlişlərin edilməsinə zərurət duyulmur. Ancaq təəssüf ki, böyük vlətlərin kiçik dövlətləri təbii resurslara, geostrateji mövqeyinə görə əzməsi, dövlətlər arasında siyasi regional inamsızlığın uğu bir zamanda qrupu məhv etmək siyasətinin əsasında siyasi, gender, mədəni əsasının olmasının da əyani şahidi oluruq.

Bütün bu kimi aktların məcmusunda biz Adolf Hitler tərəfindən II Dünya müharibəsindən əvvəl və müharibə zamanı ətdiyi əməllərdə görə bilərik. Ali irqinin daha böyük əraziyə səpələnməsini hədəfə alan Hitler bu yolda istənilən ri-qrupları məhv etmək niyyətində idi. Hitlerin həmin zaman açıq və konkret planı vardı: Avropa yəhudilərini və naniyadakı qaçqınlar kimi bəlli qrupların tam və ya qismən məhv etmək. Hitlerin yəhudilərə qarşı həyata keçirdiyi siyasət ın niyyətini açıqladı. Belə ki, bir neçə yəhudinin öldürülməsinə etinasız münasibət göstərilməsi və icazə verilməsi, qrup lərinə fiziki və mənəvi zərər yetirilməsi onun yəhudi qrupunu məhv etmək siyasətinin tərkib hissəsi idi. Roma Statutunun ı maddəsi və 1948-ci il Soyqırımı Konvensiyasına əsasən bu soyqırımı yəhudi millətinin avropalı hissəsinin xüsusi niyyətlə ıv edilməsi idi [9, s.399-400].

Buradan belə bir nəticə çıxır ki, qrupun məhv edilməsi siyasətini həyata keçirmək üçün ilkin olaraq cinayəti törədənin rində xüsusi niyyət olmalıdır. Təbii ki, burada niyyət “məhv etmək niyyəti”, yəni müdafiə olunmuş qruplardan bir üzvünün ə öldürülməsi “qrupu məhvetmə niyyəti” nin göstəricisidir. Soyqırımı cinayəti aktorunun qrupun məhvinə çalışdığı anda,: p üzvlərinin həyat şəraitinin pozulmasına gətirib çıxaran, doğumun qarşısını almağa yönəlmiş qadağan edilmiş hərəktlər pun məhv edilməsinə istiqamətlənmiş bir siyasətdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. <htip://www.agdaban.org/agdaban_tragedy.php>-Ağdaban faciəsi
2. Sadıqov Ə. Xocalı soyqırımı cinayətindəki niyyətin ümumi plan və siyasət çərçivəsində həyata keçirilməsinin beynəlxalq hüquqi qiymətləndirilməsi / Soyqırımı və terror erməni ideologiyasının əsas amilləri kimi. Beynəlxalq konfransın tezislər toplusu, s. 158
3. Schabas, William A., An Introduction to the International Criminal Court, Second Edition, Cambridge University Press, 2004, p.458
4. Robertson, Geoffrey, Crimes against Humanity: the Struggle for Global Justice, 2nd ed., Penguin Books, 2002, p. 38
5. Guenael Mettraux, Crimes Against Humanity in the Jurisprudence of the International Criminal Tribunals for the Former Yugoslavia and for Rwanda, 43 Harv. Int'l L.J., p.295-96 (2002)
6. www.justice.gov.tr/e-journal/genocidecrime/pdf<http://www.justice.gov.tr/e-jour-nal/genocidecrime/pdi>-Genosid

Cinayəti
7. Schabas W. A., Genocide in International Law 213 (2000) and, in particular, 243 et seq.; also W.A. Schabas, The Jelesic case and the mens rea of the Crime of Genocide
8. Short, Jonathan M.H. The developing Law of ICT, Michigan Journal. 2003, p.3
9. Otto Triffterer (2001), Geocide. Its Particular Intent to Destroy in Whole or in Part the Group as Such. Leiden Journal International Law, 14, pp 399-400

## POLICY OF DELIBERATE DESTRUCTION OF GROUPS OF PEOPLE.

***Nasir Mammadov*.**

The article notes that the basis of the genocide is the policy of the deliberate destruction of people of one political, nic, racial or religious group. It is also noted that the policy of the deliberate destruction bases on a certain ideological basis. the basis of the Genocide Convention the definition of the group is given and forms of the policy of their destruction are lyzed.

## ПОЛИТИКА ПРЕДНАМЕРЕННОГО УНИЧТОЖЕНИЯ ГРУППЫ ЛЮДЕЙ.

***Насир Мамедов*.**

В статье отмечается, что в основе геноцида стоит политика преднамеренного уничтожения группы людей одной политической, этнической, расовой или религиозной группы. Также отмечается, что политика преднамеренного ичтожения опирается на определенную идеологическую базу. На основе Конвенции о геноцидах дается определение группы и анализируются формы политики их уничтожения.